**“Vergi ödəyicisinin ödədiyi vergilər və məcburi dövlət sosila sığorta, işsizlikdən sığorta, icbari tibbi sığorta haqları barədə arayışın verilməsi” elektron xidmətinin**

**İstifadəçi təlimatı**

**“Vergi ödəyicisinin ödədiyi vergilər və məcburi dövlət sosila sığorta, işsizlikdən sığorta, icbari tibbi sığorta haqları barədə arayışın verilməsi”** elektron xidməti üzrə müraciət ərizəsinin təqdim olunması məqsədilə Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsinə (https://new.e-taxes.gov.az/etaxes/) giriş edib, aşağıda qeyd olunan identifikasiya və yoxlama vasitələrindən istifadə etməklə elektron kabinetə daxil olmaq lazımdır:

- Asan İmza;
- SİMA Token;
- SİMA imza.

Növbəti mərhələdə açılan yeni pəncərədə **“Ərizələr”** modulu seçilir.




Daha sonra “Vergi ödəyicisinin ödədiyi vergilər və məcburi dövlət sosila sığorta, işsizlikdən sığorta, icbari tibbi sığorta haqları barədə arayışın verilməsi” üçün müraciət ərizəsinin təqdim olunması ilə bağlı “Yeni ərizə” xanasına müraciətə uyğun ərizənin adı yazılaraq axtarış nəticəsində ekranda adı əks olunan ərizə forması seçilir və yaxud **“Hamısına bax”** düyməsi vasitəsilə yeni açılan pəncərədə müvafiq ərizə forması seçilir.




Əgər istifadəçi tərəfindən daha əvvəl bu ərizə forması doldurularaq qaralamada saxlanılmışdırsa, o zaman ekranda açılan pəncərədə əvvəl qaralaması yaradılmış ərizə formaları əks olunur və seçim imkanı verilir. İstifadəçi tərəfindən əvvəllər qaralaması yaradılmış ərizə forması üzrə davam etmək istənildikdə ekrandakı qaralaması olan ərizə forması seçilir və bu zaman aktivləşən **"Davam et"** düyməsi sıxılır və yeni pəncərədə əvvəl doldurulmuş ərizə forması açılır və düzəliş imkanı mümkün olur.




Yeni ərizə forması yaratmaq istənildikdə isə **"Yeni ərizə yarat"** düyməsi sıxılır.



Açılmış ərizə formasında əks olunan **“Siyahıya qayıt”** düyməsini sıxdıqda ekranda əks olunan pəncərədəki **“İmtina”** düyməsini sıxmaqla ərizə formasının doldurulmasına qaldığı yerdən davam etmək, **“Xeyr, silinsin”** düyməsini sıxmaqla yaradılmış ərizə formasını silmək, **“Bəli, yadda saxlanılsın”** düyməsini sıxmaqla yaradılmış ərizə formasının yadda saxlanılması mümkün olur.







“Xeyr, silinsin” düyməsi sıxıldıqda açılan “Xidmətin yekunlaşdırılması” pəncərəsindəki müvafiq məlumatlar doldurulduqdan sonra aktivləşən **“Göndər”** düyməsi sıxılır.




Açılan ekranda vergi orqanı və vergi ödəyicisi barədə məlumatlar avtomatik olaraq əks etdirilir.




Daha sonra ödənişin növü və tədiyyə üzrə məlumatların daxil edilməsi üçün “Əlavə et” düyməsi sıxılır. Açılmış yeni ekranda “Ödənişin növü”, “Tədiyyə”, “Tarix aralığı” və “Ödənişin əks olunma forması” xanaları üzrə müvafiq məlumatlar daxil edilir, aktivləşən “Davam et” düyməsi sıxılır və müvafiq məlumatlar “Ödəniş növü və tədiyyə” bölməsində əks olunur.




Əlavə olaraq digər ödəniş növü və tədiyyə üzrə məlumatların daxil edilməsi üçün təkrar olaraq “Əlavə et” düyməsi sıxılaraq proses yuxarıda qeyd olunmuş ardıcıllığa uyğun davam etdirilir.

Daxil edilmiş məlumatlara “Redaktə” düyməsi vasitəsilə düzəliş, “Sil” düyməsi vasitəsilə isə silinmə əməliyyatı həyata keçirilə bilər.




Əgər müraciət əsasında əldə ediləcək arayışın digər şəxsə (şəxslərə) təqdim olunması nəzərdə tutulursa, bu zaman “Arayış digər şəxsə təqdim edildikdə” çekboksu üzrə seçim edilir və arayışın təqdim edilməsi nəzərdə tutulan şəxsin VÖEN-i və ya adı müvafiq xanaya daxil edilərək axtarış nəticəsində əks olunan şəxs üzrə seçim edilir və “Əlavə et” düyməsi sıxılır.




*Qeyd 1: Hazırlanmış arayış seçdiyiniz vergi ödəyicisinin (ödəyicilərinin) e-kabineti olmadığı halda Sizin elektron kabinetinizə göndəriləcəkdir.*

*Qeyd 2: Hazırlanmış arayış seçdiyiniz vergi ödəyicisinin (ödəyicilərinin) e-kabineti olduğu halda həm onun (onların), həm də Sizin e-kabinetinizə göndəriləcəkdir.*

Yekunda “Vergi Məcəlləsinin 30.2.1-ci maddəsinə uyğun olaraq qeyd etdiyim şəxslər tərəfindən arayışın məlumatlarına baxılmasına razıyam” çekboksu üzrə seçim edilir.




Daha sonra ərizənin göndərilməsi üçün aktivləşən “Növbəti” düyməsi, qaralamada saxlanılması və daha sonra göndərilməsi üçün “Qaralamada saxla və çıx” düyməsi sıxılır.




Növbəti düyməsi sıxıldıqdan sonra müvafiq ərizə forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.




"İmzala və göndər" düyməsi sıxıldıqda açılan pəncərədə "İmtina" düyməsi sıxıldıqda yenidən əvvəlki pəncərəyə (ərizə formasının doldurulması pəncərəsinə) geri qayıdılır.




"İmtina" düyməsi sıxıldıqdan sonra ekranda əks olunana "Sil" düyməsi sıxılmaqla ərizə forması silinə və ya əksinə bu əməliyyatdan imtina edilə bilər.







Ərizə imzalanaraq göndərildikdən sonra yeni pəncərədə istifadəçi tərəfindən doldurulmuş məlumatlara uyğun ərizə forması və müvafiq ərizənin göndərilməsi barədə “Bildiriş” ekranda əks olunur. Həmin pəncərədə **“Çap”** düyməsi vasitəsi ilə ərizə çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. **“Bağla”** düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulmuşdur.



Ərizə

## Vergi ödəyicisinin ödədiyi vergilər və məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta, icbari tibbi sığorta haqları barədə arayışın verilməsi

Çap et | Endir

Qeydiyyat nömrəsi 2602010000700900 | Qəbul olundu 19.06.2026 saat 09:45

**Ümumi müddəalar**

| | |
|---|---|
| Vergi orqanı | 2 saylı Ərazi Vergilər Baş İdarəsi |
| Vergi ödəyicisi | 9900001881 / "AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ |
| Rəhbər | 5N983U3 / MURAD ƏZİMZADƏ FƏRHAD OĞLU |

**Ödənişin növü və tədiyyə**

| № | Ödənişin növü | Tədiyyə | Tarix aralığı | Ödənişin əks olunma forması |
|---|---|---|---|---|
| 1 | Vergi və digər büdcə daxilolmaları | Aksiz | 01.05.2026 - 01.06.2026 | Aylar üzrə |
| 2 | Məcburi dövlət sosial sığorta haqları | İşəgötürənlərin əməyin ödənişi fonduna hesablanan sosial ayırmaları | 01.05.2026 - 01.06.2026 | Aylar üzrə |
| 3 | İşsizlikdən sığorta haqları | İşəgötürənlərin əməyin ödənişi fondundan hesablanan işsizlikdən sığorta haqqı | 01.05.2026 - 01.06.2026 | Aylar üzrə |
| 4 | İcbari tibbi sığorta haqları | İşəgötürənlər tərəfindən icbari tibbi sığorta üzrə sığorta haqqı | 01.05.2026 - 01.06.2026 | Aylar üzrə |

**Arayış təqdim olunacaq vergi ödəyicisi (ləri)**

| № | VÖEN/Adı | E-kabinet |
|---|---|---|
| 1 | 2300576142 / MALİK ƏLİYEV ANDREY OĞLU | Mövcuddur |

Vergi məcəlləsinin 30.2.1-ci maddəsinə uyğun olaraq qeyd etdiyim şəxslər tərəfindən arayışın məlumatlarına baxılmasına razılıq verirəm.

Tərəfinizdən göndərilmiş "Vergi ödəyicisinin ödədiyi vergilər və sığorta haqları barədə arayış" üçün müraciət ərizəsi Dövlət Vergi Xidmətinin AVİS "Kargüzarlıq" altsistemində 2602010000700900 nömrəsi ilə qeydiyyata alınmışdır. Ərizəyə 5 iş günü ərzində qanunamüvafiq qaydada baxılaraq cavab veriləcəkdir.

Bağla

İstifadəçi tərəfindən **"Vergi ödəyicisinin ödədiyi vergilər və məcburi dövlət sosila sığorta, işsizlikdən sığorta, icbari tibbi sığorta haqları barədə arayışın verilməsi"** ilə əlaqədar göndərilən elektron ərizə onun "Ərizələr" modulundakı "Göndərilənlər" qovluğunda əks olunur və bu hissədə ərizənin statusu barədə məlumat qeyd olunur.



Eyni zamanda bu hissədən istifadəçi tərəfindən **“Çap”** düyməsi vasitəsi ilə ərizə çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.

